## “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında 2013-2015-ci illər üçün iqtisadi əməkdaşlıq Proqramı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2012-ci il iyulun 12-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında 2013-2015-ci illər üçün iqtisadi əməkdaşlıq Proqramı” təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 noyabr 2012-ci il
№ 468-IVQ

## Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında 2013-2015-ci illər üçün iqtisadi əməkdaşlıq

## Proqramı

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

hər iki dövlətin qarşılıqlı iqtisadi maraqlarının tarixən yaranmış istehsal, təsərrüfat və elmi-texniki əlaqələrlə şərtləndirildiyinə əsaslanaraq;

bu əlaqələrin qarşılıqlı faydalı və bərabər hüquqlu şərtlər əsasında qorunmasının və gələcək inkişafının, öz xalqlarının rifahının yüksəlməsi üçün iki ölkənin iqtisadi potensialının səmərəli istifadə edilməsinin obyektiv zəruriliyini qəbul edərək;

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında 2007-ci il 15 mart tarixli Sazişi nəzərə alaraq;

aşağıdakılar barədə qarşılıqlı razılığa gəldilər:

## 1. Proqramın məqsəd və vəzifələri

Hazırkı Proqram qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişafı üzrə razılaşdırılmış tədbirlər kompleksinin icrasının təmin edilməsi, iki ölkənin iqtisadiyyatının aparıcı sahələrinin müəssisələri arasında əməkdaşlıqda əhəmiyyətli tərəqqiyə nail olunması, bunun əsasında qarşılıqlı ticarət dövriyyəsinin artırılması və iki ölkənin əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə hazırlanmışdır.

Bu məqsədlərin həyata keçirilməsi üçün Tərəflər aşağıdakı məsələləri həll etməyə çalışacaqlar:

ikitərəfli əlaqələrin müqavilə-hüquq bazasının təkmilləşdirilməsi;

hər iki dövlətin iqtisadiyyatının inkişafına yönəlmiş iqtisadi və ticarət əlaqələrinin qarşılıqlı faydalı və bərabərhüquqlu şərtlər əsasında inkişafı;

bundan sonra "Tərəflərin təsərrüfat subyektləri" adlandırılacaq, hər iki dövlətin ərazisində qeydiyyatdan keçmiş təsərrüfat subyektlərinin vicdanlı rəqabəti üçün bərabər imkanların və zəmanətlərin təmin edilməsi və şəraitin yaradılması;

ətraf mühitin mühafizəsi ilə bağlı problemlərin həlli üzrə əməkdaşlığın gücləndirilməsi;

sənaye, alternativ enerji, təhsil, səhiyyə, elm, mədəniyyət, əqli mülkiyyət, turizm, informasiya, əmək və məşğulluq, sosial inkişaf və miqrasiya sahələrində əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsi.

## 2. İqtisadi əməkdaşlığın inkişafı

Tərəflər hesab edir ki, hazırkı Proqramın icrası iki dövlət arasında iqtisadi əməkdaşlığın gələcək inkişafına töhfə verəcəkdir.

Tərəflər yanacaq-energetika, aqrar kompleks, dağ-mədən və emal sənayesi, nəqliyyat, informasiya texnologiyaları və rabitə, maliyyə-kredit əlaqələri sahələrində əməkdaşlıq edəcəklər.

Tərəflər elm və texnika, standartlaşma, təhsil, əqli mülkiyyət, səhiyyə, sosial müdafiə, ətraf mühitin mühafizəsi, gömrük işi, məşğulluq və əmək miqrasiyası sahələrində qarşılıqlı faydalı əməkdaşlığı həyata keçirəcəklər.

## 3. Proqramın icra mexanizmi

Hazırkı Proqramın icra vəziyyəti üzrə əlaqələndirmə və nəzarət bundan sonra "Komissiya" adlandırılacaq Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya tərəfindən həyata keçiriləcəkdir.

Komissiyanın milli bölmələrinin sədrləri hazırkı Proqramın icrasına yönəlmiş, Tərəflərin dövlət orqanları və təsərrüfat subyektlərinin konkret tədbirlərini müəyyən edən hazırkı Proqramın icrası üzrə Tədbirlər Planını təsdiq edəcəklər.

Bu Proqramın icrası, onun Tədbirlər Planında müəyyən edilmiş Tərəflərin dövlət orqanları və təsərrüfat subyektlərinin konkret tədbirlərinin görülməsi vasitəsilə həyata keçirilir.

Bu Proqram beynəlxalq müqavilə deyildir və beynəlxalq hüquqla tənzimlənən hüquq və öhdəliklər yaratmır.

Bakı şəhərində "12" iyul 2012-ci il tarixində, hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Proqramın müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

| **Azərbaycan Respublikası Hökuməti adından** | **Tacikistan Respublikası Hökuməti adından** |
|---|---|